# Londonda Aida Mahmudovanın "Mənzərəyə açılan otaq" adlı fərdi sərgisi başa çatıb





**Londonda yerləşən məşhur müasir incəsənət məkanı olan "Saatchi" qalereyasında (https://www.saatchi-gallery.com) Azərbaycan rəssamı Aida Mahmudovanın "Mənzərəyə açılan otaq" adlı fərdi sərgisi (5 iyul - 10 sentyabr 2024-cü il) uğurla tamamlanıb.**

AZƏRTAC xəbər verir ki, yenicə ərsəyə gəlmiş ekspozisiyada rəssamın 80-dən artıq rəngkarlıq, qrafika, keramika, video və qarışıq texnikalarda olan əsərləri geniş auditoriyaya təqdim olunub.

Füruğ Fərruxzadın məşhur "Pəncərə" şeirindən ilhamlanan rəssam Aida Mahmudova "Saatchi" qalereyasında dərin bədii vasitələrlə mücərrəd tənhalıq, nostalji hisslər və azadlıq ehtirası kimi mövzuları, habelə ətraf məkana və insanın öz fiziki vücuduna qırılmaz bağlılıq duyğusunu araşdırıb. Layihə Aida Mahmudovanın universal emosiyaları ifadə etmək bacarığının bariz nümunəsi olmaqla, onun bədii, şəxsi və sosial özünüifadəyə doğru nailiyyətini obrazlarla əks etdirib.



Ekspozisiyanın giriş hissəsi rəssamın öz fərdi müşahidə arxivindən tərtib edilib. Bu arxiv onun fərdi həyatı ilə bağlı olaraq rəssamın duyğu aləmindən söz açıb. Metaforik pəncərəyə çevrilmiş slayd proyektoru həmahəng dəyişən kadrlarla müəyyən zaman kəsiyində donub qalmış məqamlara nəzər salıb. Şəxsi arxiv fotoşəkillərindən vəcdə gələn rəssam öz avtobioqrafik xatirələrini gipsdən hazırlanmış tablolara və fiqurlara çevirib, beləliklə, metamorfozlar və transformasiyalar sərhədində olan anların ötəri təbiətindən bəhs edib.

Aida Mahmudova öz əsərlərinə onun ruhunu qidalandıran təbii materialları, duyğusunu gücləndirən rəmzləri daxil edib: mərcanlar, balıqqulağılar, qurudulmuş müxtəlif bitkilər, daşlar və kristallar - bütün bunlar rəssamın bağlı olduğu məkanların bədii geopoetik obrazlarını canlandıran fraqmentlərdir. Rəssama görə, təbiətin oyatdığı işıqlı və sağlam duyğular mənəvi oyanış və məmnunluq hissi ilə bilavasitə bağlı olur.

Ekspozisiyanın rəngkarlıq bölümündə isə Aida Mahmudova nostalji hisslər ilə aşılanmış və öz üslub dəyişikliklərinə uğramış təbiət görüntüləri ilə çıxış edib. Rəssam özünün böyük ölçülü tabloları ilə yanaşı, təbiətin fraqmental təsvirlərinə geniş yer verir - onlar sanki varlığın nəbzinin donmuş məqamlarda təsviridir. Dəniz tablosu sanki sonsuzluq simvoluna çevrilir və rəssamın sevdiyi leytmotivlərdən biri olaraq müşahidəçiləri valeh edib.

Sərgi Böyük Britaniya paytaxtında 2 ay ərzində davam edərək, professional çevrənin, həmçinin ziyarətçilərin marağını və rəğbətini qazanıb.

Azərbaycan rəssamı Aida Mahmudova "Saatchi" kimi nüfuzlu məkanda fərdi sərgisi ilə əsərlərini uğurla nümayiş etdirib.